

# Gələcəyə, inkişafa və dirçəlişə aparan yol

*Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər. İşğaldan azad olunmuş digər bölgələr kimi, səfalı Ağdam da yenidən dirçəldilir, yüksək səviyyədə bərpa edilir. Ağdam Muğam Mərkəzi ilə yanaşı, həmin gün Ağdam dəmir yolu vağzalının açılışı da təntənəli şəkildə qeyd olunub. Hazırda ölkəmizin digər ərazilərindən Ağdam şəhərinə rahat gediş-gəliş üçün əlverişli şərait yaradılıb. Dövlətimizin başçısı Ağdam Muğam Mərkəzinin açılışında vurğulayıb ki, Ağdam-Xankəndi dəmir yolunun bərpası istiqamətində də işlərə başlanılıb və maksimum iki il ərzində Xankəndi şəhərində vağzal kompleksi tikiləcək.*

Prezident İlham Əliyev açılış mərasimində çıxışı zamanı Şuşanı Xankəndi ilə birləşdirəcək kanat yolu layihəsindən də bəhs etdi: "... O yolu da biz qısaldırıq. Həm genişləndiririk, həm qısaldırıq ki, maksimum 10 dəqiqə ərzində Xankəndidən Şuşaya gəlmək mümkün olsun. Bir fikrimiz də var. Onu ilk dəfə mən ictimaiyyətlə bölüşürəm. Biz Şuşanı Xankəndi ilə birləşdirən kanat yolu layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq".

Kanat yolu nəqliyyat üçün çətin olan yüksəkliklər arasında qurulan, yüksək nöqtələrdə polad kəmərlər üzərində sərnişinlər və malların daşınmasında istifadə olunan sistemdir. Lift prinsipi ilə işləyir və əsasən vadilərdə, yüksəkliklərdə və ya dəniz üzərində istifadə olunur. Quru, dəmir və dəniz yolu ilə nəqliyyatı çətin və ya bahalı olan yerlərdə insanların daşınması üçün unikal vasitədir.

Xankəndi ilə Şuşanı birləşdirəcək kanat yolu təkcə infrastruktur layihəsi deyil, Qarabağın inteqrasiyası, dayanıqlı inkişafı və mədəni dirçəlişi istiqamətində mühüm addımdır. Müasir və ekoloji cəhətdən təmiz nəqliyyat növü həm yerli əhali, həm də regionun tarixinə və təbiətinə maraq göstərən turistlər üçün yeni imkanlar açır. Layihənin məqsədi bu iki əhəmiyyətli şəhər arasında nəqliyyat əlçatanlılığını artırmaq, coğrafi relyefə görə çətin keçilən yolu asanlaşdırmaqdır. Kanat yolu iqtisadi və mədəni həyatın canlanmasına da töhfə verəcək. Turistlər üçün bu xətt "mədəni turizm" marşrutunun bir hissəsinə çevriləcək, tarix, memarlıq və təbiət abidələrini birləşdirəcək.

Kanat yolunun çəkilməsi Şuşadan Xankəndiyə getmək üçün sərf edilən zamanın bir neçə dəfə azalması deməkdir. Bu layihənin gerçəkləşdirilməsi bölgəyə gələn turistlərin rahatlığını təmin edəcək. Çünki onlar yola sərf edəcəkləri zamanını qısaldacaqlar, bu da istirahət üçün əlverişli şərait yaradacaq. Belə ki, Xankəndiyə gəlmiş turist bir neçə dəqiqə ərzində Şuşaya gedə biləcək, eyni zamanda bu yolu qalxdıqca həm də təbiətin gözəlliyini seyr edəcək. Laçın və Kəlbəcər kimi füsunkar təbiəti olan rayonlarda kanat yolların çəkilməsi turistlərdə maraq yaradacaq. Beləliklə, bölgənin turizm potensialı daha da artacaq.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur bölgəsi turizmin inkişafı baxımından olduqca əlverişli ərazilərdir. Azərbaycanın bu dilbər guşələrində beynəlxalq turizmin böyük perspektivləri mövcuddur. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişaf perspektivlərini yüksək qiymətləndirir. Bu məkanlarda bir neçə hava limanının tikilməsi, geniş avtomobil yollarının çəkilməsi, dağ ərazilərini birləşdirəcək tunellərin inşası, yalnız adi infrastruktur layihələrin reallaşdırılması anlamına gəlməməlidir. Həm də həmin ərazilərdə turizmin inkişafı üçün uyğun şəraitin yaradılması deməkdir.

Ekoloji mühafizə tədbirləri ilə yanaşı, təbii sərvətlərin qorunması da əsas məsələdir. Xankəndidən Şuşaya dolama yollarla qalxan hər hansı bir avtomobilin istifadə etdiyi yanacağın tullantıları atmosferi çirkləndirəcək. Kanat yolundan istifadə zamanı isə bu baş verməyəcək, bu üsul atmosferin çirklənməsinin qarşısının alınması sahəsində mühüm əhəmiyyət kəsb edir.

Belə layihələrin həyata keçirilməsində ətraf mühitin qorunması xüsusi önəm daşıyır. Məhz bu baxımdan, kanat yolu yalnız ənənəvi nəqliyyat vasitələrinə alternativ deyil, həm də təbiətə qayğının göstəricisidir. Eyni zamanda tikinti və istismar mərhələlərində yeni iş yerləri yaradılacaq, kiçik biznes, xidmət sahələrinin inkişafına təkan verəcək. Şuşa ilə Xankəndini birləşdirən bu layihə əlaqələrin, dialoqun və parlaq gələcəyin bərpasının rəmzidir. Bu, sadəcə səmaya qalxan yol deyil, həm sülhə, inkişafa və xalqı dirçəlişə aparan yoldur.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2025.- 15 may(№99).- S.5.